## “Sevdiyim əsər”

# İnsan hər şeydən öncə yol deməkdir

## Seyran Səxavət: “Nifrət nə qədər güclü olur olsun, ona sevgi ilə qalib gəlmək mümkündür”



**”Sevdiyim əsər” layihəsində yazarların, elm, sənət adamlarının ən çox sevdikləri əsər haqqında söhbət edirik. Budəfəki həmsöhbətimiz yazıçı, şair, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Seyran Səxavətdir. Seyran müəllimin sevdiyi əsər Ziqfrid Lentsin ”Gözəgörünməz qonşu” hekayəsidir.**

**- Hansı məziyyətlərinə və bədii keyfiyyətlərinə görə Ziqfrid Lentsin ”Gözəgörünməz qonşu” hekayəsi sizin sevdiyiniz əsərdir?**

- Düzü, çox da dərinliyə getmək istəmirəm, çünki bu, - yəni əsərlərin məziyyət və keyfiyyətindən danışmaq ədəbiyyatşünasların, ədəbi tənqidçilərin işidir. ”Oxucu” təcrübəm yazıçılıqdan çox olan biri kimi hekayənin məziyyətlərinə qalxmadan və ya keyfiyyətlərinə enmədən deyə bilərəm ki, bu hekayə həyatın əkizidir, hətta, həyatdan bir addım da üstün olacaq dərəcədə təbii və səmimidir. Madridə səfərimizdə bizi bir kəndə apardılar, sanki Madriddən bir hissəni kəsib kənddəki dağların üzərinə atmışdılar. Yəni həmin ərazi həm kənd idi, həm də şəhərin mərkəzi. Eynilə ”Gözəgörünməz qonşu”dakı məkan kimi şəhərdən kənarda, amma eyni zamanda tam mərkəzdə. Bu əsəri təxminən 40 il əvvəl oxumuşam. Bilirsən, Fərid, məndə bir xüsusiyyət var ki, kitabı ilk səhifədən açıb oxumuram, ixtiyari bir yerdən vərəqləyib mütaliəyə başlayıram, əgər xoşuma gəlirsə, sonra əvvələ qayıdıram. Z.Lentsin kitabını da açan kimi ”Gözəgörünməz qonşu” hekayəsi olan səhifədən açdım. Oxudum və çox xoşuma gəldi. Əgər bitirdikdən sonra hekayəni mənəvi cəhətdən əlimə götürməyə çalışsaydım, belə bir şey mümkün olsaydı, inan qaldırmağa gücüm çatmazdı.

**- Hekayədə üç obraz var: Şvamm, onun oğlu və gözəgörünməz qonşu (adam). İstərdim obrazların əsərdəki mahiyyətini, kimliyini şərh edəsiniz.**

- Əsəri elə ilk oxuyanda da hiss eləmişdim ki, Şvamm obrazı balaca uşaqla gözəgörünməz qonşu arasında qalıb, hər iki tərəfdən sanki məngənə ilə sıxılır. Əslində, əsərdə ən çətin duruma düşən odur - ortalıqda qalmaq çox pis şeydir. Bax, bu iki tərəfdən sıxılan Şvammın bədii jest və mimikaları, söz-söhbəti özündə taleyi, çarəsizliyi və bəzən də uğursuzluğu birləşdirir. Uşaq isə əsərdəki saflığın, gələcəyin rəmzidir. Gözəgörünməz qonşu isə yaşanmış, bitmiş ömrün simvoludur. Sanki bu obrazların hərəsi bir dövrü ifadə edir: Gözəgörünməz qonşu keçmişi, Şvamm indiki zamanı, uşaq isə gələcəyi. Elə bil yazıçı demək istəyir ki, əslində, bütün zamanlar bir yerdə - bir məkandadır.

**- ”Hər dəfə məktəbə gedərkən yolda dəmiryolu şlaqbaumu bağlandığı üçün səhər qatarının keçib getməsini gözləyən” uşağa qatarda əyləşən sərnişinlərdən heç biri əl eləmir. Yazıçı bu detalla nə demək istəyir, yaxud siz hekayədəki bu detalı necə mənalandırırsınız?**

- Məncə, bu mənanı duymaq çox da çətin başa gəlmir. Fikrimcə, insan hər şeydən öncə yol, hərəkət deməkdir. Mən çox yerləri gəzmişəm, yolun fəlsəfəsi çox ağırdır. Əsərdəki o qatar da dünyanı xarakterizə edir, onun gəldi-gedərliyini göstərir. O qatardakı sərnişinlərin hamısı elə biganələşib ki, onlar artıq özlərinə qarşı da laqeyddirlər, gözləri heç kimi görmür, eləcə də saflığı - o uşağı.

**- Şvammın oğluna əl eləmək üçün başqa bir şəhər gəldiyini biləndə gözəgörünməz qonşu əsəbiləşir. O, Şvamma irad bildirir ki, bu hərəkətinlə sən uşağı aldadırsan, onu ələ salırsan... Sizcə, oğlunu xoşbəxt etmək istəyən atanın bu addımını gözəgörünməz qonşu niyə bu qədər aqressiv qarşılayır?**

- Əslində, bu aqressiya əsərə tam hakim deyil, müəyyən zaman kəsiyində baş verən məsələdir. Sonda gözəgörünməz qonşunun uşağa əl eləməyi də bunu sübut edir. İnsan daxilinin neçə-neçə qatlarının olması balaca bir hekayədə necə ustalıqla əks olunub... Hekayədəki pillələr ancaq aşağı və yuxarıya aparmır, çoxyönlü, çoxünvanlıdır. Nəhəng yazıçı belə olar e..! Bəzi əsərlər var ki, dost-tanış yanında tost niyyəti ilə tərif etmək belə, adama günah kimi gəlir. Amma bu əsəri hamıya danışmaq istəyirsən...

**- Sizcə, müəllif gözəgörünməz qonşu obrazını niyə bu qədər gizli, sirli saxlayır: Onun adı bilinmir, əsərin sonunda hara gedəcəyi aydın olmur. Hətta gözəgörünməz qonşu Şvamı otağın işığını yandırmağa qoymur ki, onun siması oxucuya bəlli olsun. Sanki bu qəhrəman həm var, həm də yoxdur... İstərdim bu barədə danışasınız...**

- Çox düzgün qeyd elədin, o həm var, həm də yoxdur. Əslində, hamımız elə deyilikmi? Həm varıq, həm yoxuq. Mən sənin üçün varam, amma Amerikadakı bir adam üçün heç doğulmamış kimiyəm. Dünya da elə həm var, həm yox kimidir.

**- Sonda oğluna qatardan keçəndə əl eləmək üçün başqa bir şəhərə gələn Şvamm mehmanxanada yatıb qalır və qatarı qaçırır, amma onun otaq yoldaşı həmin şikəst adam - gözəgörünməz qonşu qatarla gedir və o, uşağa əl edir. Əsər belə tamamlanır: ”Şvamm axşamüstü evinə çox dilxor qayıtdı. Mehmanxanada bir gün də artıq qalmağa imkanı yox idi. Qapını oğlu açdı. Uşağın gözündən xoşbəxtlik saçırdı. Qapını taybatay açıb özünü atasının qucağına atdı. Balaca əlləri ilə atasının kürəyini döyəcləyib sevinclə dedi:**

**- Bu səhər qatarda bir nəfər mənə əl elədi. Həm də uzun-uzadı, ağacını da yellədi!**

**- Qoltuq ağacını?**

**- Hə, əvvəlcə əl yellədi, sonra qatar uzaqlaşanda ucuna ağ yaylıq bağlanmış qoltuq ağacını pəncərədən bayıra çıxarıb yellədi, ta gözdən itənədək...” Sualım ondan ibarətdir ki, qoltuq ağacına bağlanmış ağ yaylıq hekayədə hansı mənanı ifadə edir?**

- Mən istedadlı oxucu kimi belə qəbul etdim ki, o, sadəcə təslim olur, ağ bayraq qaldırır. Bütün uşaqlardan zəhləsi gedən şəxs irəliliyə doğru bir addım atır. Şvamm bilmir axı o - gözəgörünməz qonşu nəhəng adamdı, yoxsa balacadır. Həm də o, bir az səliqəsiz adam təsiri bağışlayır. O, əl ağacı, çamadanı ilə məkanı narahat edən adam idi. Hər şeyi mehmanxanadakı otağın içində ortalıqda idi. Əsərdə insanın insana tamam fərqli yanaşması var. Şvamm soruşur ki, sən bura intihar eləməyə gəlmisən? Cavabında ”mən intihar eləyən adama oxşayıram?” deyir. Şvamm əlavə edir: ”Səni görürəm ki, biləm oxşayırsan, ya yox...” Obrazın gizli qalması yaxşı olur, çünki bu halda biz obrazı həm də vəziyyət kimi, məna kimi başa düşürük.

**- Gözəgörünməz qonşu uşağa əl eləyir, hətta fədakarlıq göstərir, insanlığını sübut edir, amma o, Şvammla mehmanxanada söhbət edərkən uşaqlara münasibətini belə dilə gətirir: ”Məni uşaqlar maraqlandırmır, - naməlum qonşu dedi. - Hətta onlara nifrət edirəm, uşaqlardan qaçıram. Çünki doğrusunu desəm, uşaq ucbatından mən həyat yoldaşımı itirmişəm. O, elə ilk doğuşdaca öldü”. Obrazın dedikləri ilə əməlləri arasındakı paradoksun nədən qaynaqlanır?**



- Əslində, o, uşaqları sevir. Uşağı günahsız adam kimi əfv edir, amma səbəb kimi bağışlaya bilmir, axı həyat yoldaşı doğuş üstündə ölüb. Hekayənin sonluğu isə sanki dünyadakı bütün uşaqlardan üzr istəməyin şəklidir... Əsas məsələ odur ki, müəllif bununla göstərir ki, nifrət nə qədər güclü olur olsun, ona sevgi ilə qalib gəlmək mümkündür.

**- Seyran müəllim, 40 il öncə oxuduğunuz əsəri tam təfərrüatı ilə xatırlayırsınız. Maraqlıdır, bu illər ərzində hansı situasiyalarda, ovqatlarda ”Gözəgörünməz qonşu”ya qayıdıbsınız?**

- Məsələn, Frankfurtda olanda Z.Lentsi xatırlayıb, mümkünsüz şəkildə ”kaş ki görərdim” deyə düşünmüşəm. Bu müsahibədən qabaq yaradıcılığımı tədqiq edən xanım zəng elədi ki, Vilayət Hacıyev Z.Lentin əsərlərini tərcümə edib, məndən xahiş etdi ki, sizə onun kitabını çatdırım. Çünki o bilir ki, mən bu hekayəni çox sevirəm. Sevdiyimiz şeylərlə başqalarının yadına düşməyimiz.

Mənim belə xarakterim var ki, yolda valideynlərinin yanında gedən qəşəng uşaq görəndə mütləq ayaq saxlayıb, onu əzizləyirəm, bəzən ərk edib yüngülcə, incitmədən çimdikləyirəm. Bu zaman elə hiss edirəm ki, o uşaq elə Şvammın oğludur. Həssas insanlar sanki Allaha bənzəyirlər. Hekayədəki hər üç obraz da belədir. Bu həssaslığa özüm ad vermişəm: sürtülmüş həssaslıq, yəni bir az ələ-ayağa dolaşan, öz vəzifəsini bitirmiş. Ən gözəl detallardan biri də budur ki, hər iki həssaslıq o uşaqdan keçib gedir. Çünki sürtülmüş həssaslıq məsumluqdan keçəndə öz əsl mahiyyətini dünyaya gətirir. Sanki həssaslığın ”döl kampaniyası” başlayır. Bilirsən, necə ki odu, suyu, havanı qoruyuruq, belə həssaslığın da üstündə əsməliyik. Bax, hekayənin məziyyəti də, keyfiyyəti də, lap elə əziyyəti də elə budur...

**Söhbətləşdi: Fərid Hüseyn**